# Nümunəvi poçt işçisi



Gündəlik işimiz ilə bağlı müxtəlif peşə, sənət, vəzifə adamları ilə görüşüb həmsöhbət oluruq. Onların arasında elələri olur ki, o, sənin diqqətini nümunəvi işi, yüksək insani keyfiyyətləri ilə daha çox cəlb edir. İstər-istəməz həmin adamlar sənin müsahibin olur, onun haqqında nəsə yazmaq istəyirsən. Haqqında danışdığımız Azərpoçt MMC-nin **Şabran rayon poçt filialının rəisi Əmircan Ocaqov** da məhz belə insanlardan biridir.

Əmircan müəllim ixtisasca hüquqşünasdır. Onu yaxından tanımaq üçün qısaca da olsa tərcümeyi-halına nəzər salaq. 1960-cı ildə Şabranın dağ kəndində - məşhur Dübrar dağının ətəklərində yerləşən Güləhdə doğulub. Buranın büllur kimi saf suyunu içib, təmiz dağ havasını udub. Taleyin qisməti ilə ailəliklə Şabranın aran kəndlərinin birində yaşamalı olublar. Əmircan orta məktəbi əla oxuyub. Fərqlənmə attestatı alıb. Bakı Maliyyə-Kredit Texnikumunun hüquqşünaslıq fakültəsini bitirəndən sonra bir müddət keçmiş sovxoz təsərrüfatında hüquqşünas kimi çalışıb. Gənc kadr kimi irəli çəkilərək rayon İcraiyyə Komitəsində işə dəvət alıb. Burada təlimatçı, şöbə müdiri işləyib. Rayon Məşğulluq Mərkəzinin direktoru olub. Ali təhsil almaq məqsədilə 1989-cu ildə Ümumittifaq Hüquq İnstitutunun Stavropol şəhərində yerləşən filialına qəbul olunub. Sonra təhsilini Moskva Dövlət Hüquq Akademiyasında davam etdirib. Ali təhsilli hüquqşünas kimi respublikanın ədliyyə və həmkarlar ittifaqı orqanlarında, Dövlət Əmək Müfəttişliyində çalışıb. 10 ilə yaxın bir müddətdə seçkili orqanda - 54 saylı Şabran-Siyəzən Dairə Seçki Komissiyasının sədri vəzifəsində işləyib. İndi 4 ildir ki, Şabran poçt filialının rəisidir. Uzun illərin idarəçilik təcrübəsi ona bu sahədə də rahat işləməyə kömək edir. Hər gün yüzlərlə adamın müraciət etdiyi bu xidmət müəssisəsinə də bacarıqla başçılıq edir. Rəhbərlik etdiyi filial özündə 15 poçt şöbəsini birləşdirir. Bu şöbələr vasitəsilə rayonun 60 mindən çox əhalisinə poçt rabitəsi və bank-maliyyə xidməti həyata keçirilir. Filial, deməк olar ki, verilən tapşırıqlara həmişə vaxtında və artıqlaması ilə əməl edir. Təkcə bir faktı qeyd edək ki, 2019-cu ildə proqnoz tapşırıqlar 100 faiz yerinə yetirilmiş, 2017-ci illə müqayisədə 27 min 710 manat, 2018-ci illə müqayisədə 10 min 610 manat çox vəsait toplanmışdır.

Ə.Ocaqovun rayonda müasir poçt xidmətinin qurulmasında da xüsusi əməyi vardır. 2013-cü ildən Mərkəzi Bankın lisenziyası olmasına baxmayaraq, Ağbaş və Uzunboyad poçt şöbələrinin internet sisteminə qoşulmamasına görə əhaliyə bank-maliyyə xidmətləri göstərilmirdi. Filialın rəisi kimi Ə.Ocaqovun ciddi səyi nəticəsində hər iki poçt şöbəsi kompüter dəsti ilə təchiz edilmiş və sistemə qoşulmuşdur. Bununla da hər iki şöbə bank-maliyyə xidmətləri göstərməyə başlamışdır.

O, rayon ictimaiyyəti arasında da nüfuzu olan adamdır. Uzun müddətdir ki, rayonun YAP fəallarından biridir. Hazırda YAP Şabran rayon təşkilatı nəzarət-təftiş komissiyasının sədridir. Əmircan müəllim həm də xeyixah el adamıdır. Həmişə camaat arasındadır. Xeyirdən, şərdən heç vaxt geri qalmır. Ətrafında da yaxşı adamlardır. Bacardıqca hamıya əl uzadır, kömək edir. O, həm də ağıllı məsləhətçidir. Yaşadığı kəndin camaatının dilindən də onun haqqında xoş sözlər eşitdik.

Əmircan müəllim kollektivdə, ictimai həyatda öz vəzifəsini şərəflə yerinə yetirdiyi kimi, valideynlik borcunu da layiqincə daşıyır. O, yaxşı ata, sevimli babadır. Ailəsində böyütdüyü üç qız övladının ikisi müəllim, biri isə ali təhsilli hüquqşünasdır. 5 nəvənin babasıdır. Əmircan müəllim deyir ki, sağlam cəmiyyət, sağlam ailədən yaranır. Bu gün hər bir valideynin üzərinə çox böyük məsuliyyət düşür. Vətənə, xalqa layiqli övlad yetişdirmək bir insanın cəmiyyətə verə biləcəyi ən böyük töhfədir. Ailənin də kiçik dövlət kimi öz qayda-qanunları var.

Əmircan müəllim olduqca zəhmətkeş adamdır. İstirahət günlərini kiçik ailə təsərrüfatında keçirir. Əlqolunu çırmalayıb ailəsi ilə birlikdə torpaqda işləyir. Deyir ki, təsərrüfat mənim ikinci iş yerimdir. Şənbəbazar günlərini ancaq burada keçirirəm. Bu mənim üçün həm istirahət, həm də sevimli məşğuliyyətdir. Ən əsası ailəmin süfrəsində halal və ekoloji cəhətdən təmiz çörəkdir.

Bu bahar Əmircan müəllimin 60 yaşı tamam olur. Atasını hələ körpə ikən itirən bu insanın həyatda əzab-əziyyəti çox olub. Çətinliklərə sinə gərib, şərəflə yaşayıb bu ömrü Əmircan müəllim. Həmişə özünə, əlinin zəhmətinə güvənib. Həyatda ideali xeyirxah, ədalətli, namuslu insanlar olub. Bütün ömrü boyu bu amalla yaşayan Əmircan müəllim Məhəmməd peyğəmbərin (s.ə.a.s.) bu məşhur kəlamını tez-tez yada salır: “İnsan yaradılış etibari ilə aciz varlıqdır. Lakin sonsuz qüdrət sahibinə arxalandığı zaman fövqəladə bir iqtidara sahib olur. Bəli, o, Allaha güvəndiyi üçün damla ikən dərya, zərrə ikən Günəş, kasıb ikən Sultan olur”.

**Ziyafəddin BAYRAMOV, “Respublika”.**

Respublika.- 2020.- 8 mart.- S.4.